Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
24 sentyabr / 2020

# Bəxtiyar Süleymanlı 95 yaşın mübarək!



***Ata-babadan bu günümüzə qədər ailələrimiz arasında davam edən səmimi, insani münasibətləri yaşadan dəyərli ziyalı, müdrik ağsaqqal, gözəl qələm sahibi AYB və AJB-nin üzvü, çoxsaylı kitablar və məqalələr müəllifi, respublika DTK-da uzun illər səmərəli xidmət göstərmiş təqaüddə olan polkovnik Süleymanlı Bəxtiyar İbrahim oğlunun anadan olmasının 95 illiyinə dost sovqatı.***

Elimiz-obamızın ləyaqətli övladısan,
Duyğumun, ürəyimin pərvazlanan qanadısan,
İnci sözlər düzməyin mahir olan ustadısan,
Qəlblərdə yurd salmısan məhəbbətlə sevilərək,
Bəxtiyar Süleymanlı 95 yaşın mübarək!

Eloğlu, eyni olub aranımız, yaylağımız,
Əmanət qalıb bizə örüşümüz, oylağımız,
Gözləyir yolumuzu dağ-dərəmiz, çaylağımız,
Gün olsun ata yurdda süfrədə kəsək duz-çörək,
Bəxtiyar Süleymanlı 95 yaşın mübarək!

Vuruşdun cəbhələrdə, döyüş yolun alov-tufan,
Qayıtdın rəşadətlə qazanaraq şöhrəti-şan,
Şanlı ömür yolundan yazıb "Azad Azərbaycan",
Ağsaqqal, ziyalısan söyləyir minlərlə ürək,
Bəxtiyar Süleymanlı 95 yaşın mübarək!

Şərik oldun vətənin həm xalqının əzabına,
Yazıldın imzan ilə insanlığın kitabına,
Qazandın təltifləri xidmətinin hesabına,
Həmkarım, qələm dostum deyirəm vəcdə gələrək,
Bəxtiyar Süleymanlı 95 yaşın mübarək!

Dövlət, Vətən yolunda olub böyük xidmətiniz,
Dövlətdən qayğı olub, dəyərlənib qiymətiniz,
Görüşək Zəngilanda, Qarabağda, Şuşada biz,
Son qoyaq həsrətlərə, Tanrıya dualar edək,
Bəxtiyar Süleymanlı 95 yaşın mübarək!

Gözəl ailə başçısı, müdrik olan bir babasan,
Hər zaman övladlardan, nəvələrdən bar dadasan,
95-ə şükr edib 100-ə doğru at çapasan,
Oqtay qürurla deyir: Gün olsun 100-ünü görək,
Bəxtiyar Süleymanlı 95 yaşın mübarək!

**Oqtay Zəngilanlı**